"Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti



# Multikultural təhlükəsizliyin təmin olunmasında Azərbaycan Respublikasının təcrübəsi

**_Kamal Abdullayev_**
*Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, AMEA-nın həqiqi üzvü*

Məlum olduğu kimi, milli təhlükəsizlik sisteminin bir çox komponentləri vardır. İqtisadi təhlükəsizlik, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və s. hər biri ayrılıqda və bütövlükdə dövlətin yaşaması üçün vacib komponentlərdir. Bu sistemə mənəvi, ideoloji, siyasi həyatın ayrılmaz hissəsi olan multikultural dəyərləri də bir bütöv təhlükəsizlik komponenti kimi daxil etmək vacibdir. Ölkə öz enerji, iqtisadi, milli təhlükəsizliyini qoruduğu kimi multikultural təhlükəsizliyini də təmin etməlidir.

Cəmiyyətin multikultural təhlükəsizliyinin təmin olunması qarşısında duran problemlər inkişaf edərsə, bu, etnik, dini, irqi zəmində qarşıdurmalara, münaqişələrə səbəb olar. Son dövrdə Avropanın bir sıra ölkələrində radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyllərinin artması qeyd olunanların bariz nümunəsidir.

Azərbaycan Respublikasının multikultural təhlükəsizliyi aşağıdakı prinsiplərə əsaslanır:

**A.** *Prezident İlham Əliyev öz çıxışlarının birində dedi ki, ondan xarici ölkələrdə tez-tez təəccüblə soruşurlar: Azərbaycanda müxtəlif konfessiya rəhbərlərinin və üzvlərinin bir-birinə belə tolerant, loyal, dostluq münasibətinin əsasında nə durur? Bunun səbəbi nədir?*

*Bu sualın özü bir azərbaycanlı üçün qəribə səslənir. Çünki müasir azərbaycanlı bu münasibətin mahiyyətini hər şeydən əvvəl öz ruhu ilə, mənəviyyatı ilə hiss edir. O bunun səbəbini bilməyə bilər. Udduğun hava kimi, içdiyin su kimi bu münasibət də bizim həyatımız üçün son dərəcə adi və eyni zamanda zəruridir. Amma bu sualın, əlbəttə ki, ciddi cavabı da yox deyil. Azərbaycanda belə bir mühitin olması onunla bağlıdır ki, ölkə başçısı, bütövlükdə dövlət müxtəlif konfessiyalara bərabər siyasi münasibət bəsləyir. Bərabər siyasi münasibət də, öz növbəsində, konfessiyaların bir-birinə və hər birinin ayrılıqda dövlətə tolerant münasibətini şərtləndirir.*

**B.** *Azərbaycan Respublikasının multikultural təhlükəsizliyinin növbəti prinsipi ölkədə mövcud olan milli müxtəlifliyin qorunmasına yönəlmiş dövlət qayğısıdır.*

*Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü bir məkandır. Burada yaşayan bütün xalqlar və etnik qruplar Azərbaycanı öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən separatistlərlə eyni millətdən olan, ancaq bu separatistlərin iddialarını qəbul etməyən Azərbaycan ermənilər də buranı öz vətənləri sayırlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan xınalıqlılar da Azərbaycana məxsusdur. Bütün bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. Ümummilli lider Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir." Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində – siyasətdə, iqtisadi sferada, təhsildə, mədəni-mənəvi müstəvidə, bir sözlə, bütün sahələrdə görmək mümkündür. Ölkədə mövcud olan bütün milli müxtəlifliklərə dövlət tərəfindən bərabər, eyni münasibət bu prinsipin əsas şərtidir.*

**C.** *Azərbaycan Respublikasının multikultural təhlükəsizliyinin daha bir vacib prinsipi ölkədə yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunmasına cəmiyyət tərəfindən dəstək verilməsidir.*

*Tarixən Azərbaycan cəmiyyətinə bütövlükdə öz daxilində "öz-özgə" qarşıdurması xas deyil. Bu gün dini müstəvidə sünni və şiələr arasında loyal və tolerant münasibətə nail ola bilən Azərbaycan cəmiyyətinə milli müstəvidə özünütəcrid psixologiyası yaddır. Bu cəmiyyət kifayət qədər bütöv və bəşəri ideallara köklənmiş cəmiyyətdir. Başqa dini və milli dəyərlərə öz dərin səmimi münasibətini yaşadan cəmiyyətdir. Elə buna görə də bu gün ümumazərbaycan mənəvi konteksti Azərbaycanda yaşayan bütün dini və milli icmalar üçün doğma məkana çevrilə bilmişdir.*

Bununla yanaşı, məlumdur ki, bir sıra Qərb ölkələri XXI əsrin əvvəllərində cəmiyyətdəki etnik-mədəni müxtəliflikləri multikulturalizm siyasəti vasitəsilə tənzimləmək istərkən ciddi problemlərlə üzləşdilər. Nəticədə, bəzi ölkələrin (Almaniya, Fransa, Böyük Britaniya) başçıları multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olması səbəbindən iflasa uğradığını rəsmi olaraq bəyan etdilər. Onlar bu siyasətin səmərəsizliyini ölkələrində məskunlaşmış etnik və dini azlıqların cəmiyyətə inteqrasiya olunmaq istəmədikləri ilə əsaslandırdılar.

5 fevral 2011-ci ildə 47-ci Münxen Təhlükəsizlik Konfransındakı çıxışında Böyük Britaniyanın baş naziri David Kamerun multikulturalizm siyasətini səmərəsizliyi səbəbindən tənqid etdi. Onun çıxışı "The İndependent" qəzetində "Camerun: My war on multiculturalism" ("Kamerun: mənim multikulturalizmə dair müharibəm") adlı məqalədə verildi. Məqalənin təkcə adı onun hansı istiqamətdən yazıldığını açıq-aşkar göstərir. Bu məqalədə Kamerun dövlət multikulturalizminə qarşı özünün barışmaz və eyni zamanda bədbin mövqeyini belə izah edir: "Dövlət multikulturalizmi" doktrinası müxtəlif mədəniyyətləri öz adət-ənənələri ilə yaşamalarına dəstək verməklə cəmiyyətdə inteqrasiya proseslərinin qarşısını alır. Bunun nəticəsində müxtəlif icmalar, xüsusilə də, müsəlman icması cəmiyyətdəki liberal dəyərləri inkar edərək demokratik cəmiyyətimizin dəyərlərinə zidd olan dəyərləri təbliğ edirlər. Bu isə dini ekstremizmin baş qaldırması üçün şərait yaradır."



Bu gün Kamerunun və onun timsalında bir sıra qərb ölkələri liderlərinin bu cür bədbin mövqelərinə qarşı duran optimist baxışı və siyasi iradəni Azərbaycan Prezidenti İlham Əliyev nümayiş etdirir. O, xalqının çoxəsrlik multikultural dəyərlərə malik olmasına arxalanaraq multikulturalizmi Azərbaycanın dövlət siyasəti kimi qeyd edir və belə bir bəyanatla çıxış edir: "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayırsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

Multikulturalizmi Azərbaycanda dövlət siyasəti səviyyəsinə qaldıran Azərbaycan Prezidenti buna uyğun olaraq 2016-cı ili Azərbaycanda bütövlükdə "Multikulturalizm ili" elan etdi. Və bu il hələ başa çatmasa da, qeyd etmək istərdim ki, Azərbaycanda istənilən qəzet və sayt, TV və radio qovşaqları, demək olar ki, hər gün multikulturalizm, tolerantlıq mövzusunda söhbətlər açır, "öz-özgə" qarşıdurmasının kəskin uclarını yumşaltmağın üsul və yollarını araşdırır. Əslində, Azərbaycanda multikulturalizm öz renessansını yaşayır desək, səhv etmərik.

Şübhəsiz, Qərbi Avropa ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır. Amma mənəvi təcrübəsi böyükdür. Dastanlarımızdan, nağıllarımızdan, klassik ədəbi nümunələrimizdən qədim demokratik prinsiplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycan mənəvi həyatında tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar, təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur. Və Azərbaycan Prezidentinin şəxsi iradəsi ilə belə bir mənəvi, intellektual energetikanın sanki qarşısını kəsən bəndin özülü uçuruldu və Azərbaycan cəmiyyəti özünün tolerantlıqla zəngin həyatını buna uyğun siyasi atmosferin içərisində gördü.

Baxın, multikultural dəyərlər harada iflasa uğradı? O ölkələrdə ki, oradakı titul-millət mənəvi baxımdan formalaşma prosesini başa çatdırandan sonra oraya miqrasiyaların yeni dalğası ilə bu çağa qədər tanış olmayan multikultural dəyərlər, yad baxışlar gəlməyə başladı. Və artıq formalaşmış orqanizm bu süni calağı qəbul etmədi. Biz bu halı sonrakı müxtəliflik kimi ayıra bilərik.

Azərbaycanda isə əvvəlcədən bu dəyərlər süni deyildi. Çünki onlar təbii halda, başlanğıcdan bir yerdə idi. Bir-birini formalaşdırırdı. İlkin müxtəliflik kimi ayırmaq istədiyimiz şərait də elə budur. Buna görə də biz metodoloji olaraq, "ilkin müxtəliflik", "sonrakı müxtəliflik" anlayışlarını və bu anlayışlar çərçivəsində formalaşan cəmiyyətləri bir-birindən fərqləndirməliyik. İlkin müxtəliflik, əslində, özündə miqrasiya elementi saxlamır. O, hər hansı müxtəlifliyin ilk başlanğıcdan bir yerdə, yanaşı mövcudluğu kimi özünü göstərir.

Müasir dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinə, o cümlədən multikultural təhlükəsizliyinə təhdid edən əsas səbəblərdən biridir. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın 20 faiz ərazisini işğal etməsi və bunun nəticəsində bir milyondan artıq əhalinin qaçqın olması ölkənin bütövlükdə təhlükəsizlik sisteminin təmin olunmasına ciddi maneə yaradır. BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş 4 qətnamədə (№ 822, 853, 874 və 884) Ermənistandan öz silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxardılması tələb olunur. Bundan başqa, Ermənistanın təcavüzkar olmasına dair ATƏT-in Minsk Qrupunun, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmamaq Hərəkatının və digər beynəlxalq təşkilatların rəsmi sənədlərində qeydlər vardır. Azərbaycan Respublikası bu münaqişəni siyasi yolla, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində





həll etmək istəyir. Bu məqsədlə Azərbaycan bütün beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, onların münaqişə ilə bağlı qəbul etdiyi qərarlara hörmətlə yanaşır. Bundan başqa, münaqişənin həlli üçün 2007-ci ildə başlayan xalq diplomatiyasında Azərbaycan ziyalıları fəal şəkildə iştirak etməyə başladılar. 2007-ci ildə Azərbaycanın və Ermənistanın Rusiyadakı səfirlərinin təşəbbüsü ilə bir qrup Azərbaycanlı və bir qrup erməni ziyalısı əvvəlcə İrəvanda, sonra işğal altında olan Dağlıq Qarabağda, daha sonra Bakıda oldular, münaqişənin həll yolları ilə bağlı fikir mübadiləsi apardılar. Həmçinin hər iki ölkəni təmsil edən ziyalılar Azərbaycan və Ermənistan dövlət başçıları tərəfindən qəbul edildi. Xalq diplomatiyasının önəmi müxtəlif dairələrdə vurğulandı.

Mən də bu ziyalıların tərkibində Şuşada olarkən Azərbaycan xalqına məxsus olan maddi-mədəniyyət abidələrinin, dini ibadət yerlərinin, hətta məscidlərin necə dağıdılıb viran qalmasının şahidi oldum. Elə həmin gün, bu layhə çərçivəsində erməni ziyalıları ilə Bakının tam mərkəzində yerləşən və bu gün də bir daşına belə toxunulmamış erməni kilsəsində olduq. Bu kilsənin içərisində toplanmış erməni dilində kitabları onlara təqdim etdik. Bunu görən erməni ziyalıları çox təəccübləndilər.

Bu nadir kitabların bu şəkildə qorunub saxlanması onlara niyə təəccüblü görünməli idi? Bu ki, adi insani münasibət idi.

Azərbaycan dövləti də, xalqı da Qarabağ probleminin Azərbaycanın BMT tərəfindən tanınan sərhədlərinin toxunulmazlığı çərçivəsində sülh və diplo-

matik yolla həllinin tərəfdarıdır. Lakin bu, erməni tərəfinə sərf etmir. Bu gün azərbaycanlıları Dağlıq Qarabağda öz evlərindən qovmaqla kifayətlənməyən erməni militar rejimi eyni zamanda Azərbaycanın Dağlıq Qarabağ ətrafında, Dağlıq Qarabağa daxil olmayan ərazilərini də qamarlayıb öz əllərində saxlamaqla qəribə bir inadkarlıq göstərir. Nə özləri orada normal həyat şəraiti qura bilirlər (o ərazi yandırılmış, məhv edilmiş torpaq anlamına daha çox uyğun gəlir), nə də azərbaycanlıların o məkana (Dağlıq Qarabağdan kənardakı əraziyə) qayıtmalarına imkan verirlər. Sual olunur: Dağlıq Qarabağ ilə bağlı fikir ayrılıqlarını, təbii ki, danışıqların mövzusuna çevirmək labüddür. Bəs, Dağlıq Qarabağ ətrafı Azərbaycan əraziləri nə üçün işğal altında qalmaqda davam etməlidir?

Bu ilin aprel ayının 1-dən 5-nə qədər olan müddətdə də ermənilər işğal altında saxladıqları Azərbaycan torpaqlarından Azərbaycanın kənd və qəsəbələrini ağır artilleriyadan daha intensiv atəşə tutdular. Nəticədə, cəbhəyanı kəndlərdə 300-dən artıq yaşayış evi mərmilərin təsirindən dağıldı, 4 dinc sakin dünyasını dəyişdi, içərisində qoca və uşaqlar olmaqla onlarca sakin müxtəlif dərəcəli bədən xəsarətləri aldılar. Erməni təxribatlarının qarşısını alan Azərbaycan əsgərlərindən 31 nəfəri dünyasını dəyişdi, onlarla hərbiçimiz yaralandı. Eyni şəkildə onlarla erməni əsgəri həlak oldu. Bu 4 günlük müharibənin gedişində ilk atəşkəs qərarını isə yenə də Azərbaycan verdi. Azərbaycan Prezidenti bu qərarı dünya ictimaiyyətinə hörmət əlaməti olaraq birtərəfli şəkildə qəbul etdiyini bəyan etdi. Lakin buna baxmayaraq erməni tərəfi təxribatlar törətməkdə bu gün də davam edir. 5 aprel tarixində əldə edilən atəşkəs razılaşmasına baxmayaraq, bu gün də Azərbaycanın yayayış yerləri ağır və yüngül çaplı silahlardan atəşə tutulur. Niyə? Çünki danışıqlar masasında oturan tərəfin öz haqqına inamı olmalıdır. Bu inam isə erməni tərəfində yoxdur. Biz qarşı tərəfin savaş aludəçiliyini belə qiymətləndiririk.

Bütün bunlar sovet dövrünün ağır mirası olan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın tərəfdar çıxdığı sülh yolu ilə nizamlanması işinə hər vəchlə mane olmaq deməkdir. Eyni zamanda bu o deməkdir ki, regionun mədəni-mənəvi iqlimi darmadağın edilmiş vəziyyətdə qalmağa davam edir. Məscidlər, kilsələr, məbədlər, digər mədəniyyət abidələri Ermənistan silahlı qüvvələrinin işğal etdikləri ərazilərdə bu gün də bərbad haldadırlar.

Müasir dövrdə Azərbaycan Respublikası qismən ərazi işğalına məruz qalmasına baxmayaraq, multikulturalizm siyasətini uğurla həyata keçirərək ölkədə yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrinin etnik-mədəni dəyərlərinin qorunması istiqamətində mühüm işlər görür. Konkret olaraq onu qeyd etmək olar ki, müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanda Azərbaycan dili ilə yanaşı, rus və gürcü dillərində fəaliyyət göstərən orta ümumtəhsil məktəbləri var. Milli azlıqların sıx yaşadıqları bəzi rayonların orta məktəblərinin ibtidai siniflərində ana dili (avar, kürd, ləzgi, talış, saxur, tat, udi, xınalıq və s.) dərslərinin tədrisi təşkil edilmişdir. 2003-cü ildə Bakıda ivrit dilini, yəhudi tarixini və mədəniyyətini tədris edən özəl yəhudi orta məktəbi açılmışdır. Dövlət vəsaiti hesabına rus, avar, talış, kürd, ləzgi, saxur, tat, udi, xınalıq, ivrit dillərində əlifbalar, tədris proqramları və digər dərsliklər, məktəbli lüğətləri mütəmadi olaraq çap edilir. Bundan başqa, Azərbaycan Dövlət Radiosunda kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində dövlət büdcəsindən maliyyələşdirilən radio verilişləri təşkil edilir. Ləzgi, talış, rus, xınalıq, yəhudi, gürcü və başqa dillərdə qəzet və ya qəzet səhifələri, jurnallar, kitablar çap edilir.

Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik doktrinalarının prinsipləri qədər vacib və zəruridir. Burada sadalanan prinsiplərin bu gün mənim vətənimdə bərqərar olması isə etnik və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının birgə səyi və əməyi nəticəsində mümkün olmuşdur. Kənar ideoloji müdaxilələrin qarşısının alınması, beynəlxalq qurumlar və dövlətlər tərəfindən tanınan və qəbul edilən Azərbaycan ərazisinə Ermənistan tərəfindən faşistcəsinə

edilmiş təcavüzə baxmayaraq, Azərbaycan öz milli rəngarəngliyinin monolitliyini bu gün də qoruyub saxlayır.




Bizim cəmiyyətə xas olan multikultural əhval barədə əsrlər boyu yazıçılarımız, şairlərimiz yazmışlar. Nizami, Nəsimi, Füzuli kimi klassiklərin başqa dini dəyərlərə, başqa millət nümayəndələrinə tolerant münasibətləri bu gün də bizim üçün örnəkdir. Azərbaycan multikultural və tolerant mühitinin formalaşması barədə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu gün bir sıra Avropa universitetlərində xüsusi dərslər və seminarlar, dəyirmi masalar keçirir. Dünya ölkələri Azərbaycanın bu sahədə əldə etdiyi uğurlara hörmət nümayiş etdirir. Elə buna görə də BMT-nin son mühüm forumu – Sivilizasiyalar Alyansının VII Qlobal Forumu böyük müvəffəqiyyətlə məhz Bakıda keçirildi. Azərbaycan multikultural dəyərlərə sədaqətini bir daha sübut etdi.

"Azərbaycan multikulturalizmi bu gün özünü ən çox nədə göstərir?" sualını, elə bil, bəri başdan hiss edirəm. Və mən fikirlərimi bu suala cavab olaraq bir hadisəni xatırlatmaqla bitirmək istəyirəm.

Azərbaycan sinaqoqlarının birində mən bir ravvinlə tanış oldum. O mənə öz əhvalatını danışdı. Bu əhvalatı şərti olaraq üç hissəyə bölmək olar. Birinci hissə bundan ibarətdir. Ravvin Avropa sinaqoqlarının birində çalışır və bir gün ona Azərbaycana işləməyə gedəcəyini elan edirlər. Bu, təxminən, 10 il bundan əvvəl baş verir. Bizim ravvin dəhşətə gəlir. O nə edəcəyini bilmir. Düşünür ki, bu necə ola bilər?! Mən axı yəhudiyəm, öz geyimim, adət-ənənəm var. Azərbaycan bir müsəlman ölkəsidir. Axı mən qəzetlərdən də oxuyuram ki, orda başqa din nümayəndələrini döyürlər, söyürlər, hətta öldürürlər. Mən öz geyimimdə küçəyə necə çıxacam?! Mənim ailəm var, mən onları necə təhlükəyə ata bilərəm?!

Ravvin göz yaşları içində rəhbərliyinə yalvarır ki, onu Azərbaycana göndərməsinlər. Hara desələr, o getməyə hazırdır, təkcə Azərbaycan olmasın. Amma rəhbərlik onun xahişini qəbul etmir və ravvin Azərbaycana gəlməyə məcbur olur. Bununla mənim sizə danışmaq istədiyim əhvalatın birinci hissəsi bitir.

İkinci hissədə nə baş verir, mən onu sizə danışmayacağam. Siz bunu az sonra anlayacaqsınız.

Üçüncü hissə bir cümlədən ibarətdir. Bu gün ravvin Azərbaycan vətəndaşlığını qəbul etmək üçün Azərbaycan dövlətinə rəsmi müraciət edib.

Budur Azərbaycan multikulturalizmi.

